çünki o, bir gün olsa belə, "Rəbbim! Qiyamət günü günahlarımı bağışla" söyləməyib

Aişədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə belə dedi: Dedim: "Ey Allahın Rəsulu, ibn Cud'an cahiliyyədə qohumluq əlaqələri saxlayır, yoxsulu yedizdirərdi , bu ona fayda verəcəkmi? Dedi: Fayda verməyəcək, çünki o, bir gün olsa belə, "Rəbbim! Qiyamət günü günahlarımı bağışla" söyləməyib."

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun), İslamdan öncə Qureyşin böyüklərindən olan Abdullah bin Cud'andan xəbər vermişdir. Gözəl əməllərindən: Qohumluq əlaqələrini möhkəmlətmək, onlara xeyirxahlıq etmək, yoxsulları yedizdirmək və digər İslamın təşviq etdiyi fəzilətli əməlləri var idi. Lakin, Allaha küfr etdiyi üçün və bir gün olsun belə "Allahım Qiyamət günü günahlarımı bağışla" söyləmədiyinə görə bu əməllər ona axirətdə fayda verməyəcək.

http://sunnah.global/hadeeth/az/show/65009